**Dövlət Statistika Komitəsində Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib**



Dekabrın 10-da Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində Ümummilli Liderin vəfatının 10-cu ildönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir.



Tədbir ulu öndər Heydər Əliyevin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Tədbirdə Dövlət Statistika Komitəsi Aparatının şöbə müdirləri Elçin Hacı, Hacıbala Dadaşov və Rəşad Bayramov Ulu öndərin Vətənimiz üçün gördüyü işlərlə bağlı məruzələrlə çıxış etmiş, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında, ölkənin inkişafında böyük xidmətlərindən danışmışlar.





Qeyd edilmişdir ki, Ümummilli Lider bütün fəaliyyəti boyu xalqa xidmət etmiş, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün misilsiz işlər görmüşdür. Heydər Əliyevin dahiliyi, siyasi idarəçilik təcrübəsi, klassik və çağdaş mənada dövlətçiliyin təməl prinsipinə istinad etməsi bu fenomen şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ekstrimal vəziyyətlərdə doğru qərar qəbul etmək bacarığını və qələbələrini şərtləndirən amillərdəndir. Ümummilli lider, müdrik və dahi şəxsiyyət Heydər Əliyevin əziz və parlaq xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.





Heydər Əliyev siyasi xəttinin son 10 ildə onun layiqli davamçısı-möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi inkişafı davamlı xarakter almış, Azərbaycan sosial-iqtisadi inkişaf tempinə görə dünyanın qabaqcıl dövlətlərindən birinə çevrilmişdir.